# İgidliyi gələcək nəsillərə nümunə olacaq

**Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidovla tanışlığımız 2014-cü ildən başlamışdı. O, cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birinin komandiri idi. Şükürün üzgözündən, baxışlarından qəhrəmanlıq yağırdı. Çox sadə, səmimi və məsuliyyətli zabit idi.**



Söhbətindən öyrəndik ki, Şükür xeyli müddət Naxçıvanda xidmət edib. Günlərin birində mövqedən qayıdarkən çovğuna düşüb. Üç gün davam edən çovğun zamanı həyatla mübarizə aparan zabit Şükür Həmidov qalib gəlib. Hərbi hissədə artıq Şükürün çovğunda həlak olduğunu düşünüblər. Amma cəsur zabit üç gündən sonra sağ-salamat geri qayıdıb. Bir müddət müalicə olunandan sonra xidmətinə davam edib. Sanki Tanrı Şükürü torpaqlarımızın azad olunması üçün, Aprel döyüşlərində, 44 günlük Vətən müharibəsində erməni qəsbkarlarına qarşı vuruşmaq üçün saxlayıb.

Təəssüflər olsun ki, belə cəsur, mübariz bir zabiti çox tez itirdik. Polkovnik Şükür Həmidov qısa, lakin şərəfli bir ömür yaşadı. İkinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda, qoynunda dünyaya göz açdığı Qubadlı rayonunun ərazisində gedən döyüşdə şəhid oldu.

Həmidov Şükür Nəriman oğlu 1975-ci il aprelin 1-də Qubadlı rayonunun Armudlu kəndində anadan olub. Hərbçi olmaq arzusu ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. 1993-cü ildə liseyi bitirdikdən sonra təhsilini indiki Heydər Əliyev adına Hərbi İnstitutda davam etdirib. Burada motoatıcı ixtisasına yiyələnən Şükür Həmidov leytenant hərbi rütbəsi alaraq Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin birində taqım komandiri kimi xidmətə başlayıb. 2006-cı ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasına qəbul olub. 2008-ci ildə hərbi təhsilini bitirdikdən sonra cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində bölmə komandiri kimi xidmətini davam etdirib. Sonrakı illər ayrı-ayrı hərbi hissə və birləşmələrdə, müxtəlif vəzifələrdə xidmət edib. Bacarığı, peşəkarlığı ilə hərbi hissə komandiri vəzifəsinədək yüksəlib.

O, 2016-cı il Aprel döyüşlərində düşmən mövqelərinin yarılmasında və böyük strateji əhəmiyyətə malik olan Lələtəpə yüksəkliyinin erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. Göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 22 aprel 2016-cı il tarixli sərəncamı ilə Şükür Həmidov "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Aprel döyüşlərində göstərdiyi igidliyinə görə 2016-cı il mayın 10-da müdafiə nazirinin əmri ilə Şükür Həmidova vaxtından əvvəl polkovnik hərbi rütbəsi verilib.

Milli Qəhrəman Şükür Həmidovun dilindən düşməyən arzularından biri də işğalda qalmış Qarabağı, eləcə də doğma Qubadlı rayonunu, qoynunda dünyaya göz açdığı Armudlu kəndini azad görmək idi.

25 sentyabr 2020-ci ildə cəbhə bölgəsinə ezamiyyətə getmişdik. Polkovnik Şükür Həmidovla son görüşümüz də elə həmin gün oldu. Görüşümüzdən iki gün sonra 27 sentyabrda erməni işğalçılarının təxribatı ilə İkinci Qarabağ müharibəsi başladı. Cəsur zabit Şükür Həmidov da komandiri olduğu şəxsi heyətilə birlikdə döyüşlərə atıldı.

Polkovnik Şükür Həmidov vuruşa-vuruşa Füzulidən, Cəbrayıldan, Zəngilandan keçərək qoynunda dünyaya göz açdığı Qubadlı torpağına gedib çatmışdı. Çox keçməyəcəkdi ki, kəndlərini də erməni işğalından azad edəcəkdi. Amma təəssüflər ki, bu xoşbəxtlik qəhrəmana nəsib olmadı. Şükür Həmidov oktyabrın 22-də Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhid oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu oktyabrın 25-də Qubadlı rayonunu da, Ş.Həmidovun doğulduğu Armudlu kəndini də erməni işğalçılarından azad etdi.

Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidov İkinci Şəhidlər xiyabanında torpağa tapşırıldı. Qəhrəmanın dəfni izdihamlı keçdi.

Onun İkinci Qarabağ müharibəsində göstərdiyi şücaəti layiqincə qiymətləndirildi. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Şükür Nəriman oğlu Həmidov ölümündən sonra "Zəfər" ordeni, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olundu.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***